Referans
Klinik Laboratoriya Mərkəzi
&
Poliklinik

***0033**
ÇAĞRI MƏRKƏZİ

- **Referans Klinik Laboratoriya Mərkəzi:**
  Nərimanov ray., M.Məmmədzadə küç. 8A
- **Referans Poliklinik Nəsimi Filialı:** Nəsimi ray., M. Mirqasımov küç. 25A
- **Referans VIP Filialı:** Səbail ray., Z. Əliyeva küç. 107A
- **Referans Poliklinik Əhmədli Filialı:** Xətai ray., M. Hadi küç. 229D
- **Referans Poliklinik Bayıl Filialı:** Səbail ray., Ak. Ə. Yaqubov küç. 19
- **Referans Binəqədi Qanalma Məntəqəsi**
  (8-ci Stomatoloji Poliklinika)**:** Binəqədi ray., Azadlıq pr. 167
- **Referans Bakıxanov Səyyar Qanalma Məntəqəsi:**
  Sabunçu ray., S. Mehmandarov küç.
- **Referans Q.Qarayev Səyyar Qanalma Məntəqəsi:**
  Nizami ray., Q. Qarayev pr. 30/42
- **Referans Yasamal Filialı:** Yasamal ray., Həsən bəy Zərdabi küç. 69D
- **Referans Xırdalan Tibb Mərkəzi:**
  Xırdalan şəh., H. Əliyev pr.167 (AAAF Park)
- **Referans Sumqayıt Tibb Mərkəzi:**
  Sumqayıt şəh., Səməd Vurğun küç. 119
- **Referans Gəncə Tibb Mərkəzi:** Gəncə şəh., Atatürk pr. 120B
- **Referans Qəbələ Tibb Mərkəzi:** Qəbələ şəh., Abbas Səhhət küç. 25A
- **Referans Quba Tibb Mərkəzi:** Quba şəh., Maksim Qorki küç.
- **Referans Qusar Filialı:** Qusar şəh., Məlikov küç. 1A
- **Referans Xaçmaz Tibb Mərkəzi:**
  Xaçmaz şəh., N.Nərimanov küç. 49 (keçmiş NK-AY klinikası)
- **Referans Masallı Tibb Mərkəzi:** Masallı ray., Qarabağ küç. 20
- **Referans Lənkəran Səyyar Qanalma Məntəqəsi:**
  - Lənkəran şəh., Zərifə Əliyeva 20 (First Medical Center daxilində)
  - Lənkəran ray., Mamusta kəndi
- **Referans Səyyar Ağstafa Filialı:**
  Ağstafa ray., Dəmiryolu vağzalı daxilində
- **Referans Naxçıvan Tibb Mərkəzi:** Naxçıvan şəh., 11-ci Məhəllə
- **Referans Tovuz Tibb Mərkəzi:** Tovuz ray., M.H.Şəhriyar küç.
  (Tovuz Rayon İcra Hakimiyyətinin yanı)

---

Referans HOSPİTAL

**Referans Hayat Hospital:**
Yasamal ray., Mətbuat pr. 35A

**Referans Mərdəkan Hospital:**
Xəzər ray., Yesenin küç.92/1 və 92/2

---

Referans Wellbeing Center

**Referans Wellbeing Center:**
Nəsimi ray., M. Kaveroçkin küç. 13

---

Referans MEDICAL GROUP | Klinika Referans Medical Group daxilində fəaliyyət göstərir

info@referansclc.com
www.referansclc.com

Referans
Klinik Laboratoriya Mərkəzi
&
Poliklinik

# ESCHERICHIA COLI PANELİ

Referans MEDICAL GROUP | Klinika Referans Medical Group daxilində fəaliyyət göstərir

***0033**
ÇAĞRI MƏRKƏZİ

## ESCHERICHIA COLI PANELİ

Escherichia coli insanın bağırsaq florasının normal nümayənələrindəndir. Bu bakteriya K vitamini sintezində iştirak edir və mikrofloranın digər növlərinin çoxalmasına mane olaraq, balansın stabil qalmasına səbəb olur. Onun miqdarının azalması (xüsusilə, antibiotiklə müalicədən sonra) balansın pozulmasına, Clostridium difficile (toksin A və B) tərəfindən psevdomembranoz kolitin yaranmasına, bəzən isə Candida göbələklərinin artması hesabına kandidoza və dig' gətirib çıxarır.

Bağırsaqlarda daim kolonizə edən patogen olmayan növlərlə yanaşı kəskin bağırsaq xəstəliklərinə səbəb olan Diaregen E.coli (DEC)-lər də vardır. DEC-lər xüsusilə epidemiya şəklində ictimai səhiyyə üçün təhlükə yaradır. DEC şiddətli ishal,hemolitik uremik sindrom (HUS), hemorragik kolit (HC) və hətta ölümə səbəb ola bilər.

Diaregen E. coli (DEC) növləri müxtəlif kateqoriyalara bölünür:

- Enterotoksigen (ETEC)
- Enterohemorragik (EHEC)
- Enteropatogen (EPEC)
- Enteroaqreqativ (EAEC)
- Enteroinvaziv (EIEC)
- Diffuz Adgeziv (DAEC)

DEC növləri arasında, diaregen təsir mexanizminə əsasən toksin istehsal edən E. coli (sarı dairə) və özünəməxsus immun cavabi olan E. coli növlərinə (yaşıl dairələr) bölünürlər.




**Qeyd:** "Shiga toxin" istehsal edən E. coli (STEC) bəzən verotoksin istehsal edən E. coli (VTEC) adlanır.

Göründüyü kimi, müxtəlif DEC ştammlar arasında və Shigella spp. arasında çox oxşarlıqlar var, bu isə diaqnostikanı daha da çətinləşdirir.

EPEC diareyaya səbəb olan, daha çox yenidoğulmuş uşaqlarda izlənilir. EİEC bağırsağın iltihabına səbəb olur. ETEC vəba (xolera) toksininə bənzər toksin sintez etdiyinə görə, vəbada olduğu kimi ishala səbəb olur. EHEC sitotoksin sintez edərək, hemorragik ishala səbəb olur.

EAEC bağırsaq divarlarına adgeziya edərək, bağırsaqlarda sorulma prosesinin pozulmasına səbəb olur.

Toksinlərin təyini isə kultivasiya üsulu ilə aparıla bilmədiyi üçün adi əkilmə (bakterioloji) üsul zamanı üzə çıxmır və diaqnozun dürüstlüyünə təsir edir, yanlış olaraq antibiotiklərdən istifadə edilir. Bu isə öz növbəsində mikrofloranın bir daha pozulmasına və rezistent ştammların yaranmasına gətirib çıxarır.

| | TÖRƏTDİYİ XƏSTƏLİKLƏR |
|---|---|
| **ETEC** | (LT)Enterositlərin qanqliozidləri –adenilatsiklazanın aktivliyi artır-tsiklik AMF artır – diareya<br>(ST) quanilatsiklaza aktivləşir-tsiklikquanozin monofosfat artır<br>Turizm xəstəliyi qansız-"sekretor və ya vəbayabənzər diareya" |
| **EPEC** | Sitoplazmada filamentoz aktin toplanır, xovların destruksiyası=hamarlanması ə/g<br>Adgeziya-xarici membran zülalları "TOKSİK DİSPEPSİYA" |
| **EAEC** | Qansız diareya |
| **EİEC** Atipik eşerixiyalar | Selikli-qanlı ishal iltihab və xora Temperaturla gedir |
| **EHEC STEC O157:H7** | Qanlı aqarda – hemoliz<br>Qanlı ishal, nəcisdə leykosit az olur hemorragik kolit<br>Hemolitik uremik sindrom temperatursuz gedir |

| | | | | EKZOTOKSİN |
|---|---|---|---|---|
| **ETEC** | Nazik bağırsaq | Hamıda | Fekal-oral | XOLEROGEN EKZOTOKSİN<br>1) Termo Stabil<br>2) Termo Labil |
| **EPEC** | Nazik bağırsaq | Yenidoğul-muşlarda, 1yaşa qədər uşaqlarda | Fekal-oral | EKZOTOKSİNSİZ |
| **EAEC** | Nazik bağırsaq | Yenidoğul-muşlarda | Fekal-oral | Enteroaqreqativ ekzotoksin |
| **EİEC** Atipik eşerixiyalar | Yoğun bağırsaq | Hamıda | Fekal-oral | Hemolizin |
| **EHEC STEC O157:H7** | Kor və yoğun bağırsaq | Hamıda | Zoonoz-iri buynuzlu mal-qara Alimentar – yaxşı bişirilməmiş ət, süd | "Shiga Toxin" ("Verotoxin")-neyrotrop |

## Qastrointestinal bakteriya-II paneli ( E. coli/PZR)

- ✓ Clostridium difficile hypervirulent
- ✓ E. coli O157
- ✓ STEC* (stx1/2)
- ✓ EPEC* (eaeA)
- ✓ ETEC* (lt/st)
- ✓ EAEC* (aggR)

Molekulyar genetik PZR (PCR) metodundan istifadə edərək bağırsaqda gedən pozğunluğun, diareyanın Clostridium difficile və ya hansı E.coli ştammı tərəfindən baş verməsinin səbəbini dəqiq bilərək, düzgün diaqnoz əldə etmiş olacaqsınız.